Hafiz ƏLİ

İKİ SONLUQLU BİR ŞEİR

İlk sonluğu «Ürək dili» kitabımdadır.

Eşq Allah işığıdır,
Dünyanın yaraşığıdır.
Kimin ki, üroyində
Bu işıq var,
O, haqqa tez qovuşar.
Xoşbəxtdi o kəs ki,
Bu işıq qəlbinə dolub.
Bu işığın gücünə
Leyli Leyli olub,
Məcnun Məcnun olub
Koroğlu Koroğlu,
Nigar da Nigar...
Bunlarla bərabər
Bir sualım da var-
Eşq olmasa
İnsan kim və nə olar?!...

BÖYÜK, KİÇİK...

Sənə böyükmü, kiçikmi deyim?!
Böyük adamlar həmişə pisi yox,
Yaxşını birinci görür.
Adi torpağa da baxanda
Torpağı zər, inci görür...
Böyük adam özü özünə
Haqq-hesab verir hər gün...
Kiçiklər yaşayır yalnız
Özü və ailəsi üçün.
Çünki onlar yaşayır
Kiçik-kiçik arzularla.
Yəni nə sənin deyilsə
Girəvə tap qamarla...
Böyüklərin arzuları da böyük,
Çünki onlar bu torpaqda hər şeyə
Məsuliyyət daşıyır.
Hətta zülmətdə də işıq görür,
Axı onlar böyük amalla yaşayır.
Kiçik adamların
Mənəviyyatı puç, çürük.
Böyük adamların ürəkləri
Özlərindən də böyük...

1 aprel 2015.

QIRMIZI YALAN

Qırmızı yalandı başdan ayağa,
Çapqındı, talandı başdan ayağa.
Aldığı yalandı, verdiyi yalan,
Bildiyi yalandı, gördüyü yalan.
Əkdiyi yalandı, bitdiyi yalan,
Batdığı yalandı, itdiyi yalan...
Dini-imanı da yalandı bəlkə
Yalan yalan yox, ilandı bəlkə...
- Hardadı?!
- Havanda belə bir ölkə?!
- Adını qoy deyim;
Eh, adı, aaadı,
Adı da dilimin lap ucundadı...
Yooox, belə bir
Ölkə yaardı, vardı...
Yaranandan bəlkə elə
Yalan üstdə borğerərdı...
Nə illah etsən də
Köhnə şəkərin atmır ki, atmır.
Hər şeyi olsa da,ay dədi-bidad,
Əynində qırmızı donu tək çatmır...

27 mart 2015.

AXIRDA

Alın yazım idi, tale qismətim,
Bir gün o da heçə döndü axırda.
Nə ricam idi o, nə də minnətim,
Daş olub başımda dindi axırda.

Hələ nə vuruşdu, nə də barışıq,
Bir üzüm zülmətdi, bir üzüm işıq...
Necədu, necədu o boy, yarışıq?!
Göydən yerə zərbə endi axırda...

Ələ düşməz bir də o zaman, o çağ...
Daha hafiz Əli, uzaqdan-uzaq.
İti bir küreydin, gur yanan ocaq,
Özün də bilmədən çöndü axırda...

29 mart 2015.

XIRDA BALIQLAR

Xırda balıqlar
Xırda çay daşlarının
Arasında üzürlər.
Böyük balıqların
Nə də qorxu-hürküsündən əsirlər...
Böyük balıqlar hara,
Eh, onlar hara?
Axı yaxın düşə bilməz burda
Böyük balıqlar onlara...
Xırda balıqların həyatları
Özlərinə bir yük...
Böyük balıqların dərdindən
Xırda balıqların dərdləri
Daha böyükdür, daha böyük...

HƏQİQƏT

Həqiqət axtarma qardaşım,
Həqiqət suda diri balıq kimi
Çox çətin keçir ələ.
Göz açandan mən onu
Belə görmüşəm, belə.
Həqiqət axtarma qardaşım,
Həqiqət indi hardasa
Kiminsə yasında bəlkə də ağı deyir...
Barmaqlıqlar arxasında
Ya da kı inildəyir.
Həqiqətin ələ keçəcəyinə inanma
Ona qalınca bir qarış da.
Çünki həqiqət
Nuh oyyanından üzü bəri
Axtarışdadı, axtarışda...

30 mart 2015.

HƏYAT EŞQİ

Gündüzlər oxumur,
Gecələr oxuyur ilbizlər.
Bunu ohumiyyətsiz
Bir şey bilir bizlər.
Gecə qaranlığında onlara bir sığınacaq
Hər ot, hər yarpaq...
Çünki daha qorxuludur
Gecədən gündüz təhlükəsi...
Burda qəribəliyə
Bir fikir verin!
Bizim həyatımız bizə
Şirin olduğundan da
Həyatları axı onlara şirin...

BABAMIN KƏLAMLARI

Suda boğulana deyərlər:
Ağlı ağıl olsaydı,
Bədən oldən getməzdi.
Döyüşdə uduzana deyərlər:
İgidləri igid olsaydı,
Vətən oldən getməzdi.

* * *

Səadət özü də xoşlayır minnət,
Onun da nazını çəkəsən gərək.
Əgər sosi-ünü gəlmirsə, demək,
Nə vaxtsa yanından ötüb səadət...

* * *

Ödunu udan adamlar kimi
Payızda yarpaqlar saralır yaman.
Bəlkə də onların rəngləri qaçır
Qəflə işə düşən balta xofundan ?!

* * *

Mənim adım babam deyən bir kolam,
Ona müdriklərdən var salam.
Əqidə vuruşunda dolmə-deşik üroyim
Mənim qanlı Karbolam.

* * *

Mənə qənim kəsilənlərin
Əllərində boynumu vurmağa balta çatmır,
Ya da boğazıma keçirməyə
Qalın xalta çatmır...
Bu yöndə elə
Dar ağacı da pis olmazdı.
Ən uzağı isə
Gör ağacı da pis olmazdı...

28 mart 2015.

TƏMİZ DÜŞÜNCƏDİR ŞEİR

Gizlənmə, aşkara çıx görüm ey can,
Sidqən deyə bilim gözəl, sən kimsən.
Görüm can veronsən, yada can alan,
Dərdliyə dərmansan, yoxsa həkimsən?!

Çünki sondə ki var o üz, o surət,
Olmur onu görmək heç kəsə qismət.
Ya gərək osil, tam insan olsun o,
Yuda gərək surəti-rəhman*olsun o.

**ilahisifət*

* * *

Bəzən böyüklə böyük,
Uşaqla uşaq olur adam...
Burda təəccüblü nə var?!
Təpəyə çıxanda kiçikdən-kiçik,
Dağa çıxanda dağ olur adam...

* * *

Ağılla iş görəndə ağlımdadı gücüm,
Əllə iş görəndə qolumda.
Bəzən istəmədiyim bir yerə
Bir ayağım gedəndə, bir ayağım getmir.
Gedirsə,
Demək, iş yolumdadır, yolumda...

* * *

Uşaqlıqdan bağ salmağa
Adət olmuşam,
Bu vərdiş hara getdiməə,
Mənimlə getdi...
Hətta o,
Mənı yuxuda da toqib etdi.
Ona görə də harda olıram,
Elə bilirəm cənnət də mənimlə gedir...

* * *

İncədən-incədi şeir,
Təmiz düşüncədi şeir.
Kim ki, təmiz düşüncədən qaçır,
Qarğışlanağa dilim gəlmir,-
Onun başına xeyir!...

* * *

Bahardır yenə,
Küçəmizdəki ağaclar çiçəkləyib.
Hər səhər onlara baxanda
Mənə elə gəlir dünya laçəkləyib.

24 mart 2015.

ÇİÇƏKLƏR, ÇİÇƏKLƏR...

Bu çiçəklər düşübər
Nazlı bir qızın toruna.
Bu çıçəklər qurban olublar
Bir igidin qəbrinə, goruna.
Bu çiçəklər özləri də
Nikbinlik, gümrahlıq gətirib
Nurani, ağbirçək anaya.
Bu çiçəklər şuxluq, təravət gətirib
Sünbülü peyban conaya...
Ay çiçəklər, çiçəklər!
Siz necə də füsunkar,
Lütvükarsınız!
Elə buna görə də
Çox xoşbəxt, bəxtiyarsınız.
Çiçəklər, çiçəklər, siz özünüz də
Əlvan-əlvan arzular, diləklər.
Dövrənizdə gecə-gündüz mələklər.
Siz şərafət, ləyaqət rəmzi,
Səadət, sədaqət, məhəbbət rəmzi...
Siz baharsız da baharsız,
Cənnət o yer ki, orda siz varsız.
Mayanızda vəfa, etibar...
Siz bahara bayraqdar...
Ucalıq timsalı-qədir-qiymətsiniz.
Şah-şərafət, əsil hörmətsiniz.
Hər biriniz təzə nəğmə,
Hər biriniz bir gözəlləmə.
Sizdə həyatın öz ruhu-öz rəngi var,
Könül ritmi, ahəngi var...
Hər birniz rəssam təbiətin
Kamil bir əsəri.
Siz sevinc mənbəi, zəriflik heykəli.
Hər səhər başınız üstdə
Quşların coh-cəhi,
Ətirli, xətirli səba yerlərinin bəh-bəhi.
Deyin, necə vəsf eləyim bunu mən?!
Bu ən böyük mükafatdı sizə
Allah tərəfindən.
Çiçəklər, çiçəklər,
Məlahətdə, lətafətdə siz nadirsiniz.
Nə yaxşı az ömrünüzdə çox şeyə qadirsiniz!

23 mart 2015.

QURBƏT

Gör nə qədər qohumlarım,
Gör nə qədər tanışlarım...
Ancaq kı, mənə yad
Yerişləri duruşları...
Mənə yad gülüşləri, baxışları...
Azsam tənhalıq dumanında
İtirib axtaran olmaz.
Boğulsam yalqızlıq havasında
Havamı qaytaran olmaz.
Od kimi yox olsam,
Su kimi soğulsam
Mənə hay veron olmaz.
İşdir, nəbarlıq vaxtı
Tamahsınıb şişsəm
Pay veron olmaz.
Eh, nə qoyum, nə axtarım?!
Nə deyim, nə danışım?!
İşdəkləri bol-bol.
Dişdəkləri bol-bol...
Qurbətdə olmamışam,
Çətin orda dözüm mən...
De qurbəti neyniərəm?!
Elə qurbət özüməm,
Elə qurbət özüm mən.

22mart 2015.

HƏM DƏ

Nə bağ içində bağım var,
Nə dağ üstdə bir dağım var.
Həm də
Bir sürü heyvanım üçün
Nə gövşənim, otlağım var...

Giley-güzar, şikayətlə
Özəl gündən yoxdur aram.
Kim mənə həsəd aparsa
Mən çəkəni yalnız
Ona arzuların...

23 mart 2015.

ÖLÜMƏ QARŞI

Ölümə qarşı olmuşam,
Həmişə ölümə qarşı.
Bəlkə də cəsarətim
Ondan hündür yarım arşın.

Neçə dəfə gəlmişəm
Mən onun ilə üz-üzə
Dayanmaq üçün mən
Onun ilə nəfəs-nəfəsə göz-gözə...
Bəli, elə hey üz tutmuşam
Ölümə qarşı.
Xoflandırır, qorxudur axı
Düşməni düşmən marşı.
Yox, əsməyəcək dizim
Heydən düşsəm də özüm.
Hələki sinəmdə mətin,
Düzümlü ürək,
Hələki dövrəmdə qoruycu,
Xilaskar mələk...
Son nəfəsdə ona baxa-baxa
Qədən gülacəyəm.
Mən öz ölümümlə
Bir ölümü öldürəcəyəm...

21 mart 2015.

SALAM QOCALIQ!

Salam, xoş görmüşük!
Salam qocalıq!
Qorxma,
Hələ deyil ömrüm buncalıq.
Bilmirəm çovğundu, ya da küləkdi,
Qəlbim cavan qəlbi, ruhum yüksəkdi.
Hələ ki son deyil atam balası,
Hələ qabaqdadı ümid qalası...
Hələ neçə-neçə həsd var qabaqda...
Hələ keçəcəyim sədd var qabaqda...
Güllər var təzəcə İəçəkləməkdə,
Yubanan arzular çiçəkləməkdə...
Hələ ki öz yerində öz səsim-ünüm,
Əvvəlki həvəsdə ürək də yenə.
Yenidən başlardı sevdalı günüm
Əgər imkan versəydi ömür-gün mənə...

22 mart 2015.

SƏNDƏN HARDA VAR?!

Əzizim, məhribanım,
Günəşim, kəhkəşanım.
Füsünkar oyladımsan,
Mənim cənnət bağımsan.
Vəfalım,
Cəfalım,
Səndən harda var?!

Gəl daşına daş qoyum,
İzin üstdə baş qoyum.
Gülüstanım, gülzarım,
Barım, varım, baharım.
Sevincim,
Güvəncim,
Səndən harda var?!

İnam, iman yoldaşım,
Cananım, can sirdaşım.
Məlum kefim, nəşəmsən,
Bağ-bağçam, bənövşəmsən.
Sabahım,
Günəhım,
Səndən harda var?!

Könlüm əlindən asılı,
Dünyam telindən asılı.
Olum qızıl üzüyün,
Qolbağın,bilərziyin.
Xaqanım,
Soltanım,
Səndən harda var?!

20 mart 2015.

DEYİRLƏR

Deyirlər mələklər
günahsız olur,
Onlara
cənnətin qapısı açıq.
Elə uşaqlar da
Belə günahsız,
Bu sözün
şeytana gəlməsin açıq...
Çünki
Günahsızlar
Onun düşməni.
Əslində
onlara çatmır
şeytan örkəni...
Şeytan getmədiyi
Yola yol deməz.
Şeytan girmədiyi
Kola kol deməz.
Tupodən dırnağa
çünki yalandır.
Hər şeydən halidir.
axı şeytandır.
Ancaq mələklərsə
məhribandılar.
Mələyin uşaqla
Arası sazdı.
Mələk də mələk olmazdı,
Mələk qurubunda
- xeyirxahlıq var.
Elə yaramızdan
onlar xilaskar.

19 mart 2015.